# Dünya miqyasında nadir əməkdaşlıq, iş birliyi və müttəfiqlik nümunəsi

*Bu gün “TEKNOFEST” bizim birliyimizin növbəti nümayişidir, onun təzahürüdür. “TEKNOFEST” elm, inkişaf, bilik, texnologiya bayramıdır. Əminəm ki, “TEKNOFEST”də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaqlar. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın oldu, bir-birini tanıdı və əminəm ki, gələcəkdə də daim bir yerdə olacaqlar.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*




***Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın mayın 28-də – Müstəqillik Günündə ölkəmizə səfəri və paytaxtımızda ilk dəfə keçirilən “TEKNOFEST Azərbaycan” aerokosmik və texnologiya festivalında iştirak etməsi qardaşlıq və müttəfiqlik münasibətinin daha bir parlaq nümunəsi kimi diqqət çəkdi. “Bir millət, iki dövlət, tək festival” şüarı ilə keçirilən “TEKNOFEST Azərbaycan” layihəsi bir çox tarixi məqamlarla yadda qaldı. İlk növbədə, hər iki ölkədə informasiya texnologiyalarının inkişafı, innovasiyalar, alternativ və daha sürətli həll mexanizmlərinin tətbiqinə mühüm önəm verildiyi sübuta yetirildi.***

Bu möhtəşəm festivalın aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi sahələrin inkişafını sürətləndirəcəyi heç kimdə şübhə doğurmur. Layihənin nəticələrinin bundan sonra sahibkarlığın təşviq edilməsinə, gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılmasına, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasına müsbət təsir göstərəcəyi də əminliklə gözlənilir.

“TEKNOFEST Azərbaycan”ın əhəmiyyəti barədə danışarkən, bəzi məqamları xatırlatmaq yerinə düşər. Prezident İlham Əliyevin festivaldakı çıxışında vurğulandığı kimi, dünya şöhrətli alim, Nobel mükafatı laureatı Əziz Səncər və “TEKNOFEST”in təşkilatçısı, İkinci Qarabağ müharibəsində əldə edilən parlaq qələbəyə böyük töhfə verən məşhur “Bayraktar” PUA-ların ixtiraçısı Selçuk Bayraktarın Azərbaycana bir arada təşrif buyurmaları əlamətdar hadisədir. Onların hər ikisi gənclər üçün böyük örnəkdir.

Dövlətimizin başçısı, həmçinin Əziz Səncərlə bundan əvvəlki görüş zamanı onun Şuşaya getmək arzusundan bəhs edərək, alimin bu istəyinin gerçəkləşdiyini xatırladıb: “Mənimlə görüşdən sonra Şuşaya getmişdir və bildirmişdir ki, artıq həyatda nəyə nail olmaq istəmişəmsə, ona nail olmuşam– Şuşanı da gördüm. Bu, bizi də çox xoşbəxt etdi. Əziz Səncər kimi insanlar gənclər üçün örnəkdir, nümunədir – həm alim, həm vətəndaş, həm türkçü, həm vətənpərvər insan…”.

Prezidenti İlham Əliyev Selçuk Bayraktarı da səmimiyyətlə salamlayaraq, onun “TEKNOFEST”in təşkilatçısı və təşəbbüskarı olduğunu, Bayraktarlar ailəsinin dünyada çox məşhur bir ailə kimi tanındığını qeyd edib. Ölkə rəhbəri daha sonra deyib: “İkinci Qarabağ savaşında məşhur “Bayraktar” PUA-larının rolunu indi dünyada bilməyən yoxdur. Selçuk bəy dünən Şuşada idi. Əminəm, Şuşanı görərkən bir daha şahidi oldu ki, Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Xalqlarımız öz milli qürurunu müdafiə etmək, təmin etmək üçün hər zaman hər bir addıma fədakarcasına hazırdırlar. Selçuk bəy də gənclər üçün gözəl örnəkdir, nümunədir. Əminəm ki, bizim gənclərimiz Selçuk bəy kimi olmağa çalışacaqlar”.

Elm, texnologiya və innovasiya dövlətlərin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsidir. Ona görə də bu sahələrə daha çox sərmayə yatırmağa, habelə zəruri siyasət və fəaliyyət planları işləyib hazırlamağa ehtiyac var. Bütün bunlar isə müxtəlif ölkələrin insanının və dövlətinin inkişafı deməkdir. Dövlətin öz siyasi və iqtisadi müstəqilliyini qorumaq üçün yüksək texnologiyaya malik olması müstəsna əhəmiyyətə malikdir. Bu baxımdan, “TEKNOFEST Azərbaycan” festivalı mühüm önəm daşıyır. Digər tərəfdən isə layihənin elmi, iqtisadi imkanları genişləndirməsi ilə yanaşı, onun siyasi mənası da xüsusi diqqət çəkir.

“TEKNOFEST Azərbaycan” festivalının böyük əhəmiyyətindən danışarkən, onu da bildirək ki, bu möhtəşəm layihə elm, inkişaf, bilik, texnologiya bayramı olmaqla bərabər, həm də Türkiyə və Azərbaycan gənclərini bir ailə kimi bir-birinə yaxınlaşdıran, bir-birinə tanıdan tədbir kimi mühüm önəm daşıyır.

Vurğulayaq ki, festivalda çıxış edən dövlət başçıları tərəfindən təkcə regiona deyil, həm də dünya ictimaiyyətinə vacib mesajlar verildi. Prezident İlham Əliyevin “Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır”, Rəcəb Tayyib Ərdoğanın isə “Azərbaycan və Türkiyə birliyi təzyiqlə, təhdidlə qorxudulanlardan olmayıb və əsla olmayacaq. İşğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqlı mübarizəmizi müdafiə etməkdən geri durmadıq və durmayacağıq”, – fikirləri ölkələrimizin qardaşlığının bütün dünyaya daha bir nümayişi kimi diqqət çəkdi.

Hər iki ölkə başçısı, eyni zamanda, tarixi faktları misal çəkməklə, həm də gələcək addımları açıqladı. Prezident İlham Əliyev Azərbaycan və Türkiyənin beynəlxalq güc mərkəzləri olduğunu qeyd edərək bildirdi ki, Türkiyənin artan gücü Azərbaycanı gücləndirir və hər iki ölkə bir-birinə güc qataraq dünya miqyasında güc mərkəzinə çevrilir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə vurğuladı ki, hədəf dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi ilə bölgədə sabitliyin möhkəmləndirilməsidir. Bütün bunları nəzərə alaraq söyləyə bilərik ki, artıq bölgədə yeni mərhələ başlayır.

“TEKNOFEST Azərbaycan” aerokosmik və texnologiya festivalında Azərbaycan və Türkiyə Prezidentləri tərəfindən iki dost, müttəfiq ölkənin keçdiyi inkişaf yoluna nəzər salınıb əzəli və əbədi qardaşlığımızı şərtləndirən amillər açıqlandı. Azərbaycanın qarşılaşdığı haqsızlıqlara, ədalətsizliklərə baxmayaraq, diplomatiyada, iqtisadiyyatda, mədəniyyətdə dastan yazdığı, cənab İlham Əliyevin qətiyyətli liderliyi ilə aydın bir gələcəyə doğru əmin addımlarla irəlilədiyi xüsusi qeyd edildi.

Bildirildi ki, hər iki qardaş ölkə harada haqsızlıq, ədalətsizlik varsa, orada səsini ucaldır, ədalətə çağırışlar edir. İki dost dövlət hər zaman bir yerdədir. “TEKNOFEST Azərbaycan” festivalı Azərbaycan və Türkiyə gənclərinin nümayiş etdirdikləri birlik, həmrəylik fonunda bu münasibətlərin gələcək inkişafının da aydın mənzərəsini formalaşdırır və bu təməl üzərində bundan sonra da hələ neçə layihəyə imza atılacağına əminlik yaradır.

“TEKNOFEST” festivalı ənənəsini uğurla davam etdirən qardaş ölkə ordu quruculuğuna daim önəm verir, ərazi bütövlüyünün qorunması, müdafiə sənayesinin inkişafı məsələlərini diqqətdə saxlayır. Şübhəsiz ki, bu amilə Azərbaycanda da xüsusi həssaslıqla yanaşılır. Bakıda ilk dəfə keçirilən adı çəkilən tədbirə Azərbaycan gəncliyinin coşqu ilə qoşulması da məhz bununla bağlıdır və bu, həm də respublikamızın elm-təhsil müəssisələrində hərbi texnologiyaya dərin maraq yaradılmasından irəli gəlir.

Azərbaycan hazırda dünyada ən sürətlə inkişaf edən dövlətlərdən biri kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi yeniliklərin siyasi islahatlarla tamamlanması və uzlaşdırılmasıdır. Azərbaycanın bu təcrübəsi dünyada maraqla qarşılanır və öyrənilir. Dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi mühüm yer tutur.

İnnovasiya proseslərinin intensivliyinin artması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindən biridir. İnkişaf etmiş ölkələrdə ÜDM-nin artımının 75-90 faizi, MDB ölkələrində isə 10 faizi innovasiya sektoru hesabına təmin olunur.

Əgər ölkə yeni dünya bazarlarına çıxışı planlaşdırırsa, onda məhz innovativ iqtisadi artım ona belə imkanı gerçəkləşdirə bilər, çünki innovasiyalar yeni malların yaradılmasını təklif edir, bu halda sərt rəqabətlə artıq mövcud olan bazarlarda möhkəmlənməyə çalışmaqdansa yeni bazarların yaradılması və onlarda lider mövqeləri tutmaq daha məqsədəuyğundur.

Milli müəssisələrin və iqtisadiyyatın rəqabətə davamlılığının artırılması məqsədi ilə ölkəmizin istehsal və innovasiya texnologiyalarının tətbiqi sahəsində başqa aparıcı ölkələrdən geriliyini minimuma endirmək əsas vəzifələrdən biridir. Bununla əlaqədar olaraq innovasiya fəaliyyətinin inkişafının stimullaşdırılmasına yönəldilmiş müxtəlif tədbirlər davamlı şəkildə işlənilməli və tətbiq edilməlidir.

Sonda xatırladaq ki, Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın açılışında iştirak etdikəri 7 saylı Bakı “ASAN xidmət” və “Bilim Bakı” mərkəzləri də innovasiya və texnologiyayanın ən son nəticələri əsasında qurulub, 80-dən çox startapdan yararlanılıb.

*V.BAYRAMOV,*
*“Xalq qəzeti”*